# Heydər Əliyev Azərbaycanın haqq səsi idi



***Ermənilər Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə birləşdirilməsi iddiasını hələ XX əsrin 60-cı illərinin ortalarında həyata keçirmək, reallaşdırmaq xülyasında idilər. 1966-cı ildə mən ATİ-ni bitirib DQMV-yə təyinat almışdım. O vaxt DQMV Səhiyyə Şöbəsinin müdiri vəzifəsində çalışan Atayan mənim işlə təmin olunmağıma icazə vermədi: "Yerimiz yoxdur!" – dedi. Səmərqənddən gələn erməniləri isə dərhal işlə təmin etdi. Mənim israrlı müraciətimdən sonra Atayan ona yaxın olan mötəbər şəxsin yanında xəlvəti olaraq demişdi: "Yerevandan bizə məxfi təlimat göndərilib ki, milliyyətcə türk olanların heç biri Xankəndidə, ümumiyyətlə, DQMV-də işə qəbul olunmasın. İşdə olanları da qovmaq, uzaqlaşdırmaq lazımdır. Əgər türkə iş versəm, mənim özümü işdən qovarlar". İki aydan sonra – 1966-cı il oktyabrın 4-də böyük çətinliklə mənə Ağdamın Şelli, Abdal Gülablı kəndlərinə yaxın olan və ermənilər yaşayan Naxçıvanik – Pircamal – Aranzəmin kəndlərini əhatə edən yeni tikilmiş xəstəxanada işləməyə göndəriş verdilər. Həmin kənd Ağdama yaxın olduğuna görə erməni həkimlər ora getməkdən imtina edirdilər.***

1964-cü ildə Silva Kaputikyanın "Karvan hələ yoldadır" adlı mənfur kitabı təzə çapdan çıxmışdı. Kitabın motivləri heç bir əsası olmayan qondarma "1915-ci il erməni soyqırımına" görə erməniləri bütün türkləri qırmağa, "Böyük Ermənistan dövləti" yaratmağa səsləyirdi. Bunun üçün erməni şovinistlər müxtəlif bəhanələrlə məqsədyönlü və planlı şəkildə iğtişaşlar törədirdilər. Belə bir ixtişaşı onlar 1967-ci il iyul ayının əvvəllərində Xankəndidə törətdilər. Üç nəfər günahsız azərbaycanlı– orta məktəbin direktoru Ərşad müəllim, Şuşa həbsxanasının sürücüsü və işçisi olan iki günahsız azərbaycanlı Xankəndidə Moskvadan dəvət olunmuş rus mütəxəssislərinin rəhbərliyi ilə aparılan məhkəmə zalından çıxarılarkən məhkəmə binasının həyətindəcə ermənilər tərəfindən diri-diri yandırılmışdılar. Bununla da ermənilərin azərbaycanlılarla birgə yaşamasının "mümkünsüzlüyünü" bəhanə gətirərək, dünya xalqlarını çaşdırmaq, Azərbaycanın tərkibindən çıxıb Ermənistan SSR-ə birləşmək cəhdlərini reallaşdırmağa bəraət qazandırmaq istəyirdilər. Həmin günün ertəsi bütün qadağalara baxmayaraq, orta məktəb dostlarımla Xankəndidə hadisə baş verən yerdə olduq.

Yanğınsöndürən maşınlar nə qədər çalışsalar da yandırılan insanların yağ izlərini asfaltdan yuyub təmizləyə bilmirdi. Eşitdik ki, Bakıdan – Dövlət Təhlükəsizliyi Komitəsindən (DTK) bir qrup işçi Xankəndiyə gəlib və qrupa general Heydər Əliyev rəhbərlik edir. Onun adını ilk dəfə eşidirdik Xankəndidəki fəaliyyətini də ilk dəfə idi ki, əyani görürdük.

O vaxtlar Azərbaycan Respublikasının DTK rəhbərliyində çalışan cənab Heydər Əliyevin həyata keçirdiyi çevik tədbirlər nəticəsində iğtişaşları təşkil edən və onun fəal iştirakçısı olan 75 nəfər saxlanılaraq, Bakıya dindirilməyə aparıldı. Dahi Heydər Əliyevin gördüyü tədbirlər sayəsində hər şey qısa müddətdə aydınlaşdı. Məlum oldu ki, DQMV-də orta məktəb direktoru olan erməninin kiçik yaşlı oğlu azərbaycanlı Ərşad müəllim tərəfindən yox, Azərbaycanı millətlərarası münaqişəyə cəlb etmək və günahlandırmaq məqsədilə onun öz yaxın dostu olan erməni – terrorçu tərəfindən öldürtdürülüb. Eyni məzmunlu başqa bir fakt isə o idi ki, 1988-ci ilin fevral ayında oxşar ssenari üzrə Qriqoryan soyadlı daşnak terrorçu Sumqayıtda yaşayan bir neçə erməni qocasını, qadınını öldürərək, dünyanı aldatmağa çalışmış, Azərbaycan torpaqlarını Ermənistana birləşdirmək tələbinə "zəmin" yaratmışdı.

1967-ci ildə DQMV-də ermənilərin özləri tərəfindən törədilən və azərbaycanlıların adına yazılmasına cəhd edilən psevdo erməni ölümünün təşkili 21 il sonra Sumqayıtda törədilmiş anoloji təxribatın – eyni məzmunlu və başqa formalı iğtişaşın başlanğıcı idi. DQMV-də təşkil edilən bu yalan ayaq tutsa da, yerimədi. Öldürülən erməni uşağının atası məhkəmə zamanı erməni terrorçularının iç üzünü aydınlığa gördü və yandırılan azərbaycanlıların günahsız olduqlarını dərk etdi. Nəhayət, o da anladı ki, erməni terrorçuları öz mənfur niyyətlərini həyata keçirmək, buna nail olmaq məqsədilə dünya xalqlarını aldatmaq üçün lazım gəldikdə öz millətindən olan xalqın bir hissəsinin qırılmasını təşkil etməkdən belə çəkinməyən quldurlardır. Yer üzündə belə xislətə – öz millətini məhv edərək şou yaratmaq xislətinə malik olmaq yalnız ermənilərə xas olan xüsusiyyətdir.

1969-cu ilin iyul ayında ulu öndər Heydər Əliyev Azərbaycanda ilk dəfə dövlət rəhbərliyinə gəldikdən sonra ermənilərin əl-qolu daha kip bağlandı. Onlar bilirdilər ki, Heydər Əliyev şəxsiyyəti ermənilərin hər hiyləsinin qarşısını almağa qadirdir və ona görə də 20 ilə yaxın bir müddətdə "Miatsum" şüarını aşkar səsləndirə bilmədilər. Ümummilli lider bütöv erməni diasporuna qarşı, demək olar ki, təkbaşına mübarizə aparır və qalib gəlirdi.

1983-1987-ci illərdə Sov. İKP MK siyasi bürosunun üzvü olan ümummilli lider Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin edilməsi erməni diasporuna ağır zərbə oldu. 1987-ci ilin noyabr ayında ermənipərəst Mixail Qorbaçov Heydər Əliyevin beynəlxalq miqyasdakı nüfuzu qarşısında tab gətirə bilmədi. O, çıxış yolunu hiyləgərliklə, müxtəlif əsassız bəhanələrlə ulu öndəri vəzifəsindən uzaqlaşdırmaqda gördü və çirkin niyyətini həyata keçirdi. Bundan sonra onun dövrəsində olan Şahnazaryan, Aqanbekyan kimi fitnəkar ermənilər fəallaşdılar. Aqanbekyan Fransada çıxan "Humanite" qəzetində (18 noyabr 1987) Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə M.Qorbaçovun razılıq verdiyi haqda məlumat dərc etdirdi.

1988-ci il fevralın 12–13-də Xankəndidə Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Ermənistan Respublikasına birləşdirilməsi haqqında "Miatsum" şüarı ilə mitinqlər başlandı. Bu dövrdə M.Qorbaçovun, onun dövrəsində olan erməni casuslarının və digər ermənipərəstlərin göstərişi, təbliğatı ilə keçmiş SSRİ-nin müxtəlif yerlərində, hətta ali məktəblərdə də ulu öndərə qarşı əks təbliğat işləri aparılırdı. Çünki ondan hədsiz dərəcədə qorxur və çəkinirdilər. 1988-ci ilin mart-aprel aylarında mən Moskvaya İ.M.Seçenov adına Moskva Dövlət Tibb İnstitutunun "İnsan anatomiyası" kafedrasında dosent kimi ixtisasartırma kursuna göndərilmişdim. Həmişəki kimi, SSRİ-nin 15 respublikasından gəlmiş dinləyicilərə ilk mühazirə 200 nəfərlik böyük auditoriyada söylənilirdi. Əvvəlki illərdə olduğu kimi, pedaqogika üzrə ilk ümumi mühazirəni professor Vladimir Metelitsa oxuyurdu. O, mühazirəyə başlayarkən dərhal mövzunu dəyişdi və ulu öndər Heydər Əliyevin ünvanına xoşagəlməz ifadələr işlətməyə başladı. Mən bunu böyük azərbaycanlıya, Azərbaycan xalqına qarşı təhqir kimi qəbul etdim və dərhal ayağa qalxaraq dedim ki, 1983-cü ildə də bizə bu auditoriyada ilk mühazirəni siz oxumuşdunuz. O vaxtda da mövzunu dəyişərək dərhal cənab Heydər Əliyevdən danışdınız və onun bacarığını, qabiliyyətini xüsusi qeyd edərək təkcə SSRİ-də deyil, bütün dünyada korrupsiyaya qarşı açıq mübarizəyə başlayan ilk cəsarətli lider olduğunu söylədiniz: Hətta onun haqqında "Literaturnaya qazeta"da dərc olunan "Qoy ədalət zəfər çalsın" məqaləsini də misal gətirdiniz. İndi isə ermənilərin təsiri altına düşərək ikiüzlülük edirsiniz və cənab Heydər Əliyevin ünvanına xoşagəlməz ifadələr işlədirsiniz. Bu, heç də sizin kimi professora başucalığı gətirmir.

Professor Metelitsa fakt qarşısında dillənə bilmədi və mühazirəni başqa səmtə yönəldib bir təhər sona çatdırdı və aradan çıxdı. Doğrudur, mühazirədən sonra bəzi müdavimlər mənə təzyiqlər edib, hədə-qorxu da gəldilər. Şübhəsiz mən onları da cavabsız qoymadım və haqlı olduğumu sübut etdim. Məncə, professor Metelitsa da səhvini başa düşdü və ən azı dediklərinin mənəvi əzabını çəkdi. Ümummilli lider isə öz dahilik zirvəsində qaldı.

1988-1993-cü illərdə erməni quldurları havadarlarının köməyi ilə Azərbaycan torpaqlarını işğal edib bir milyondan artıq əhalini qaçqın və məcburi köçkün vəziyyətinə saldılar. 1996-cı il fevralın 24-də ümummilli lider dahi Heydər Əliyev Xocalı soyqırımının 4-cü ildönümü ərəfəsində mənim də iştirak və çıxış etdiyim görüşdə Xocalı nümayəndələrini qəbul edərkən bu qətliamı "bəşər tarixinin ən dəhşətli soyqırımı" adlandıraraq, ona siyasi qiymət verdi. Biz, xocalıları əmin etdi ki, şəhidlərimizin qanı yerdə qalmayacaq, biz nəyin bahasına olursa-olsun erməni işğalı altında olan torpaqlarımızı geri qaytaracağıq.

Qarabağın görən gözü olan Şuşa erməni işğalı altında inləyəndə ümummilli liderin layiqli davamçısı Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə demişdi ki, biz heç vaxt torpaqlarımızın işğalı ilə barışmayacağıq. Biz torpaqlarımızda ikinci erməni dövləti yaradılmasına yol verməyəcəyik! Biz Qarabağımızı, Şuşamızı, ətraf rayonları işğaldan azad edəcəyik. Ona görə də 30 illik müddətdə hər birimizin içində ümummilli lider Heydər Əliyevə və cənab Prezident İlham Əliyevə bəslənən inam, etibar daha da möhkəmlənmişdi. Bu inam, bu etibar məni də sonsuz dərəcədə ruhlandırmış və erməni terrorçularına bir mesaj kimi 2010-cu ildə dərc olunan və Şuşaya həsr etdiyim "Pənahxan övladları" adlı şeirdə öz əksini tapmışdı:

***Keçəmməz qalasından***
***Pənah xan övladları!***
***Keçəmməz Şuşasından***
***Pənah xan övladları!***
***Keçəmməz ulusundan***
***türk oğlu, türk əsgəri!***
***Keçəmməz namusundan***
***Azərbaycan əsgəri!***

2020-ci il sentyabr ayının 27-də erməni terrorçularının törətdikləri növbəti təxribata cavab olaraq başlanan əks-hücum əməliyyatları ilə torpaqlarımız Prezident, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin yaratdığı müzəffər ordumuz tərəfindən 44 günlük Vətən müharibəsində azad edildi.

2020-ci il noyabrın 10-da Ali Baş Komandan İlham Əliyevin Şuşada böyük qürur hissi ilə, qəlbləri riqqətə gətirən xüsusi məğrurluqla: "Əziz Şuşa, sən azadsan!", "Əziz Şuşa, biz gəlmişik!" nidalarını səsləndirməsi, dahi Heydər Əliyevin məzarı önündə və Şəhidlər xiyabanında Qarabağın döyünən ürəyi, başının tacı olan Şuşanın erməni işğalından azad edilməsi haqqında hesabat xarakterli sevinc nitqi söyləməsi Azərbaycanda, bütün dünyada şimşək tək çaxaraq qəlbimizi işıqlandırdı, bükülmüş belimizi dikəltdi, namus, qeyrət harayı başımızı ucaltdı. Şuşa qalasını kərpic-kərpic quraraq dünyaya tanıdan Pənah xanın övladları idisə, onu mənfur işğalçıların – erməni cəlladlarının caynağından dişiylə, dırnağıyla qəlpə-qəlpə qoparan, əsirlikdən qurtaran, azadlığa çıxaran Prezident İlham Əliyevin yetişdirdiyi vətənpərvər gənclər oldu.

***Qırx dörd günə qalib gəldi,***
***zəfər çaldı ordumuz,***
***Sinələrə məlhəm oldu***
***hər qarış torpağımız!***
***"Dəmir yumruq" şans vermədi***
***düşmənin məramına***
***Hər şəhidi, hər əsgəri yetirdi***
***öz kamına.***

2021-ci ilin 14 iyulu ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə ilk gəlişinin 52-ci ildönümüdür. Bu əlamətdar günə ən böyük töhfəni– Zəfər bayramını bəxş edən möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan cənab İlham Əliyev və onun ən yaxın silahdaşı, məsləkdaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva, həmçinin qürurlu və vətənsevər xalqımızla yanaşı, qalib silahlı qüvvələrimiz oldu. Zəfər bayramı həm də dünya azərbaycanlılarının "Dəmir yumruq" kimi birliyini, monolitliyini, sülhsevərliyini, bəşəriliyini dünyaya tanıtdı. Zəfər bayramının təminatçısı olan şəhidlərimiz isə ən uca zirvəyə yüksələrək əbədiyaşarlıq qazandılar.

***Mübariz ALLAHVERDİYEV,***
***ATU-nun professoru***